**Azərbaycan Respublikası təhsil nazirinin**
**“7”avqust 2015-ci il tarixli 861 №-li əmri**
**ilə təsdiq olunmuşdur**

**BMT-nin “Sülh naminə əməkdaşlıq – hər kəsin şəfər borcudur” şüarı altında” YUNESKO-nun yaranmasının 70 illik yubileyi münasibətilə 21 sentyabr Beynəlxalq Sülh Gününə həsr olunmuş “Sülh naminə birləşək!” mövzusunda respublika rəsm müsabiqəsinin əsasnaməsi**

## I. Müsabiqənin məqsədi

Müsabiqənin keçirilməsində məqsəd BMT və YUNESKO tərəfindən hər il qeyd olunan 21 sentyabr Beynəlxalq Sülh Gününə uşaq və gənclərin diqqətini cəlb etmək, onlarda qeyri-zorakılıq, sülh mədəniyyəti, vətənpərvərlik, adət-ənənələrə hörmət ruhu aşılamaq, habelə bədii-estetik səviyyələrini yüksəltmək, xüsusi istedada malik olan uşaqları üzə çıxarmaq və onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək verməkdir.

## II. Müsabiqənin şərtləri və keçirilmə qaydası

1. Müsabiqənin əsas təşkilatçıları Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnsan hüquqları, demokratiya və sülh problemləri üzrə YUNESKO mərkəzidir.
2. Müsabiqə “Sülh naminə əməkdaşlıq – hər kəsin şəfər borcudur” şüarı altında” və “Sülh naminə birləşək” mövzusunda keçirilir.
3. Müsabiqədə ümumtəhsil və internat məktəblərinin şagirdləri, məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri iştirak edirlər.
4. Müsabiqə üç yaş qrupu üzrə: 6-9, 10-14 və 15-18 yaşlı uşaq və gənclər arasındakeçirilir.
5. Müsabiqəyə təqdim olunmuş işlərin qiymətləndirilməsi məqsədilə müsabiqənin

təşkilat komitəsi tərəfindən təsdiq olunmuş, tanınmış mütəxəssislərdən ibarət münsiflər heyəti yaradılır.

6. Rəsmlər ideya müxtəlifliyi, kreativlik və texniki meyarlar üzrə qiymətləndiriləcəkdir.

7. Müsabiqə 2 mərhələdə keçirilir: 1-ci mərhələ: məktəbdaxili və rayon (şəhər) mərhələsidir. Həmin mərhələdə I yerin qalibi olmuş işlər 2-ci mərhələyə təqdim ediləcəkdir. 2-ci mərhələ: Respublika mərhələsidir. Respublika mərhələsində hər yaş qrupu üzrə 9 qalib iş seçiləcəkdir.

8. Hər iştirakçı müsabiqəyə yalnız 1 iş təqdim edə bilər.

8. Rəsmlərin işlənmə texnikası sərbəstdir.

9. Rəsmlər müsabiqəyə ilk dəfə təqdim olunmalıdır.

10. Rəsmlər çərçivələnmiş, A3 və ya A4 formatında olmalıdır. Rəsmin arxa tərəfində yuxarı sol küncündə müəllifin adı, soyadı və atasının adı, əlaqə nömrəsi, şəhər və ya rayon, oxuduğu təhsil müəssisəsi və ya məşğul olduğu məktəbdənkənar təhsil müəssəsinin adı etiketdə çap edilərək yapışdırılmalıdır.

11. Əsərlər müsabiqəyə birbaşa və ya poçt vasitəsi ilə 20 oktyabr 2015-ci il tarixədək Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnsan hüquqları, demokratiya və sülh problemləri üzrə YUNESKO Mərkəzinə təqdim olunmalıdır. Ünvan: Bakı şəhəri, Lermontov küçəsi, 36. Əlaqə telefonları: (012) 492-63-61. (070) 408-00-92;
unescochairaz@gmail.com, www.facebook.com/unescochairaz

## III. Müsabiqəyə yekun vurulması

1. Müsabiqənin münsiflər heyəti tərəfindən hər yaş qrupu üzrə 9 qalib seçiləcəkdir.

2. Müsabiqənin yekununda qaliblərin, eyni zamanda seçilmiş ən yaxşı işlərin kataloqu nəşr ediləcəkdir.

3. Müsabiqə qaliblərinin işlərindən ibarət yekun sərgi və mükafatlandırma mərasimi cari ilin noyabr ayında Bakı şəhərində keçiriləcəkdir.

4. Rayon (şəhər) təhsil şöbələri qaliblərin mükafatlandırma mərasimində iştirakını təmin edir və onları müşayiət edəcək nümayəndənin ezamiyyə xərclərini ödəyir.

## IV. Qaliblərin mükafatlandırılması

Müsabiqə qalibləri Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnsan hüquqları, demokratiya və sülh problemləri üzrə YUNESKO Mərkəzinin diplomu, sertifikatı və qiymətli hədiyyələri ilə mükafatlandırılırlar.

Diplomlar I, II və III yerlər tutmuş qaliblərə, sertifikatlar isə əsərləri kataloqa daxil edilmiş nazimədlərə təqdim olunacaqdır.